# GƏNCƏ: SEÇKİLƏR ƏDALƏTLİ, ŞƏFFAF, DEMOKRATİK KEÇİRİLƏCƏKDİR

Azərbaycan Respublikası Prezidentinin 28 avqust 2015-ci il tarixli sərəncamı ilə Beşinci çağırış Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər 2015-ci il noyabrın 1-nə təyin edilmişdir. Artıq ölkəmizdə seçkilərin keyfiyyəti ildən-ilə artırılaraq müasir standartlara uyğunlaşdırılmış, ədalətli, şəffaf və demokratik seçkinin təminatı üçün bütün mövcud şərait yaradılmışdır. Gəncə şəhəri indiyədək respublika üzrə keçirilən bütün seçkilərdə özünün mütəşəkkilliyi ilə fərqlənib. Seçimi ölkəmizdə uğurla həyata keçirilən kompleks inkişaf strategiyasına söykənir. Gəncə şəhərində növbəti Milli Məclisə seçkiləri, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının normativ sənədlərinə uyğun 37, 38, 39 və 40 saylı dairələr həyata keçirir.

Gəncə şəhəri 37 saylı Nizami birinci (Gəncə)seçki dairəsində komissiya öz işini normativ sənədlərə uyğun qurmuş, seçkinin mütəşəkkil keçirilməsi üçün mərhələli tədbirlər keçirilməkdədir. **Dairə Seçki komissiyasının sədri Faiq Haçıyevin** verdiyi məlumata görə, dairə üzrə 24 seçki məntəqəsi fəaliyyət göstərir ki, bu məntəqələrdə 33505 nəfər seçicisi vardır. Onlardan 345 nəfəri ilk dəfə səs verəcəkdir. Ədalətli, şəffaf və demokratik seçkinin təminatı üçün bütün məntəqələrdə mövcud şərait yaradılmış, 10 məntəqəyə veb kamera quraşdırılmışdır. 8 namizəd qeydiyyata alınmış, 216 müşahidəçi isə qeydiyyatdan keçmişdir.

Gəncə şəhəri 38 saylı Nizami ikinci seçki dairəsində seçicilərin normal şəraitdə öz iradələrini ifadə etmələri, istədikləri namizədlərə azad-aydın və şəffaf şəraitdə öz səslərini vermələri üçün hər cür şərait yaradılmışdır. **Dairə Seçki komissiyasının sədri Rafael Xəlilov,** Prezident seçkilərində, referendumda qazanılan təcrübədən, səmərəli seçki texnologiyasından maksimum yararlanaraq Milli Məclisə seçkilərin də yüksək səviyyədə keçirilməsi, qədirbilən Şeyx Nizami yurdunun seçiciləri həmişəki kimi yüksək əhval-ruhiyyə, mütəşəkkil və səfərbərlik əzmi ilə iştirak edəcəyini vurğuladı. Məlumat verdi ki, rəhbərlik etdiyi dairədə 24 məntəqə 31965 nəfər seçici var. Seçki dairəsi üzrə bütün daimi seçki məntəqələri telefonlaşdırılıb. Həmçinin daimi seçki məntəqələri müasir texniki avadanlıqlarla təmin edilib. Yaranacaq hər hansı hala qarşı öncədən tədbirlər görülüb. Belə ki, bütün daimi seçki məntəqələri generatorlarla, müxtəlif texniki avadanlıqlarla tam təmin edilib. 6 namizəd irəli sürülmüşdür. Seçkilərdə şəffaflığın təmin edilməsi məqsədilə seçki dairəsinin 10 seçki məntəqəsində səsvermə prosesinin birbaşa izlənməsi üçün veb kameralar quraşdırılmışdır. İlk dəfə səs verən 68 nəfər gəncə seçki hüququ ilə bağlı mühazirələr oxunmuş, maariflənmə tədbirləri keçirilmişdir. Bütün daimi seçki məntəqələri üzrə treninqlər keçirilmiş, maarifləndirmə işləri yerinə yetirilmiş, məntəqələrə təlimatlar, yaddaş kitabçaları paylanmış, təşviqat vasitələrində seçkilərin keçirilməsinə dair zəruri məlumatlar öz əksini tapmışdır. İnanırıq ki, seçki günü seçicilər yüksək mütəşəkkillik nümayiş etdirəcək, öz layiqli seçimlərinə səs verəcəklər.

**39 saylı Kəpəz birinci Dairə Seçki komissiyasının sədri Elbar Əhmədovun** verdiyi məlumata görə, dairə üzrə fəaliyyət göstərən 29 seçki məntəqəsində 38147 seçici vardır ki, onlardan 246 nəfəri ilk dəfə səs verən gənclərdir. 6 nəfərin deputatlığa namizədliyi qeydə alınmışdır. Seçkinin şəffaflığı üçün 9 məntəqədə veb-kamera quraşdırılmış, bütün məntəqələrdə seçicilərin rahat səs verməsi üçün tam şərait yaradılmışdır. 228 nəfər müşahidəçi qeydiyyata alınmışdır.

**40 saylı Kəpəz ikinci dairə seçki komissiyasının sədri Urfan Nəsirovun** verdiyi məlumata görə, dairə üzrə fəaliyyət göstərən 30 seçki məntəqəsində 41874 seçici var. Onlardan 165 nəfəri ilk dəfə səs verən gənclərdir. Bütün məntəqələrdə seçkinin mütəşəkkil keçməsi üçün maksimum şərait yaradılmışdır. Şəffaflığın təminatı üçün 11 məntəqədə veb-kameralar quraşdırılmışdır. 6 nəfərin namizədliyi qeydə alınmış, 190 müşahidəçi qeydiyyatdan keçmişdir. Seçki dairəsi üzrə namizədlərin təbliğat-təşviqat materialları lövhələrdə yerləşdirmişdir. Seçki günü məntəqələrin elektrik enerjisi ilə fasiləsiz təmin olunması üçün müvafiq tədbirlər görülmüşdür. Əvvəlki seçkilərdə olduğu kimi, bu seçkini də yüksək səviyyədə başa çatdırmaq üçün bütün imkanlar səfərbər edilmişdir.

**Zabit XƏLİLOV,**
**"Respublika".**